

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 62 (23.949)

*6 aprel 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 5-də İsrail-Azərbaycan Hökumətlərarası Birgə Komissiyasının həmsədri, İsrailin turizm naziri Yoel Razvozovu qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək İsraildə Azərbaycan ticarət nümayəndəliyinin fəaliyyət göstərməsinin və Turizm Mərkəzinin açılmasının önəmini vurğulayıb. Prezident İlham Əliyev həyata keçirilən qarşılıqlı səfərlərin də əlaqələrimizin inkişafına töhfə verdiyini bildirib. İqtisadi sferada əlaqələrə toxunan dövlətimizin başçısı Azərbaycanın İsrailin mühüm neft təchizatçılarından biri olduğunu deyib. Azərbaycan Respublikasının Prezidenti İsrail şirkətləri ilə bərpa olunan enerji sahəsində əməkdaşlıq üçün yaxşı potensialın olduğunu bildirib, yüksək texnologiyalar sahəsində də əməkdaşlıq üçün yaxşı imkanların mövcudluğunu deyib.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində İsrail şirkətlərinin iştirakından məmnunluğunu ifadə edib.

## Naxçıvanda yeni kənd təsərrüfatı texnikaları və avadanlıqlarının təqdimatı olub





Muxtar respublikada kənd təsərrüfatının prioritet sahə kimi müəyyənləşdirilməsi yerli istehsalın həcminin artmasına, ixrac imkanlarının yaradılması və əhalinin məşğulluğunun təmin olunmasına şərait yaratmışdır. Bu gün torpaq mülkiyyətçiləri və fermerlərin, həmçinin ailə təsərrüfatçılarının müasir kənd təsərrüfatı texnika və texnoloji avadanlıqları ilə təmin olunması da məhsul istehsalında rentabelliyi artıran əsas tədbirlərdəndir. Aqrar sahədə müasir texnologiyaların tətbiqi məhsulun itkisiz və vaxtında yığılmasına, məhsuldarlığın yüksəldilməsinə, əl əməyinin yüngülləşdirilməsinə və çəkilən xərclərin azalmasına imkan verir.

Aprelin 5-də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində yeni kənd təsərrüfatı texnikaları və avadanlıqlarının təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Baş Nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, aqrar sahədə sistemli şəkildə həyata keçirilən islahatlar və aparılan kompleks işlər nəticəsində muxtar respublikada kənd təsərrüfatı bu gün müasir inkişaf mərhələsinə yüksəlmişdir. Aqrar sektorda yüksək nəticələrə nail olmaq üçün yeni texnologiyaların tətbiqi mühüm şərtdir. Muxtar respublikada bu sahəyə göstərilən qayğının nəticəsidir ki, texnika parkı tamamilə yenilənib. Hazırda dünyanın qabaqcıl şirkətlərinin istehsal etdikləri müxtəlif texnika və avadanlıqlar muxtar respublikanın torpaq mülkiyyətçiləri və fermerlərinin istifadəsindədir. Hazırda "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin bazasında 473 texnika və avadanlıq mövcuddur. Cəmiyyətin fəaliyyəti dövründə 1180 sahibkara lizinqə verilmiş texnikalara görə 11 milyon 841 min manat güzəşt tətbiq edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamlarının icrası ilə əlaqədar 2021-ci ildə və 2022-ci ilin üç ayı ərzində 10 kiçikölçülü traktor, 3 kiçikölçülü kotan, 9 yerşumlayan, 25 yaş və quru otdoğrayan maşın, 9 arpa-buğda qırma maşını, 5 frez, 1 kiçikölçülü rotorlu otbiçən, 3 südsağan aqreqat, 1 qoşqu, 2 kiçikölçülü kartofçıxaran, 1 dırmıq, 4 xamaçəkən, 2 yunqırxan və 110 dəst suvarma sistemi lizinq yolu ilə kiçik ailə təsərrüfatı sahiblərinə verilmişdir. Elşad Əliyev yaradılan şəraitə görə minnətdarlıq etmişdir.



Sonra yaz əkinləri barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hava şəraiti yaz əkinlərinin başlamasına imkan vermişdir. Qısa müddətdə 1700 hektardan artıq sahədə aqrotexniki qaydalara uyğun olaraq yazlıq əkinlər keçirilmişdir. Ötən il fərdi təsərrüfatlardakı əkinlər nəzərə alınmadan pay torpaqlarında soğan əkini 105 hektar olmuşdur. Bu günə isə 152 hektar sahədə soğan əkilmişdir. Gec, orta və tezyetişən sortlar olmaqla kartof əkini 318 hektara çatdırılmışdır. Tapşırıq əsasında bu il, əsasən, yağlı bitkilərin – qarğıdalı və günəbaxan əkinləri əsas götürülmüşdür. Bu günə 50 hektardan çox sahədə qarğıdalı əkini keçirilmiş, günəbaxan əkinlərinə də başlanılmışdır. Həmçinin torpaq mülkiyyətçilərinə lazım olan toxumlar alınıb gətirilərək "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsində satışı təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Muxtar respublikada aqrar sahədə görülən işlər torpaqlardan tam səmərəli istifadə olunmasına imkan verir. Torpaqların suvarılması, münbitliyinin artırılması və əkin işlərinin aqrotexniki qaydalarda aparılması üçün hərtərəfli şərait vardır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra aqrar sahədə islahatlara ilk dəfə muxtar respublikada başlanıldı. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanda başlatdığı islahatlar sonradan, bütövlükdə, ölkəmizdə tətbiq olundu. Bu gün artıq Azərbaycan kəndlisi həm torpağa, həm də texnikaya sahibdir. 2006-cı ildən etibarən aqrolizinq sahəsində görülən işlərin nəticəsi olaraq muxtar respublikada 3000-ə yaxın texnika lizinqə verilmiş, həmin texnikaların 70 faizə yaxını dəyəri tam ödənilməklə sahibkarların şəxsi mülkiyyətinə keçirilmişdir. Bu da imkan verir ki, həm rəqabət olsun, həm də torpağın əkilib-becərilməsində əvvəlki dövrlərdə olan problemlər ortadan qaldırılsın.

Ali Məclisin Sədri demişdir: Hər il muxtar respublikada yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. 2021-ci ildə muxtar respublikada 970 hektara yaxın yeni torpaqlar əkin dövriyyəsinə daxil edilmişdir. Bura həm meyvə bağları, həm də əkin sahələri aiddir. Bunların da əkilib-becərilməsi üçün texnika lazımdır. Texnikaların gətirilməsi üçün isə müvafiq qurum yaradılıbdır. Bu qurum da öz işini layiqincə yerinə yetirir, verilən tapşırıqlar vaxtında icra edilir. Bu gün muxtar respublikada aqrolizinq sahəsində əhaliyə göstərilən xidmətlər və lizinqə verilmiş texnikalar sahəsində heç bir problem yoxdur. Artıq "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti həm lizinq xidməti, həm də texniki xidmət işlərini həyata keçirir. Görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada torpaq mülkiyyətçiləri və fermerlərin sayı artır, bol məhsul istehsal edilir, bir çox məhsullar üzrə tələbat yerli istehsal hesabına ödənilir, əhali məşğulluğu təmin olunur.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada həm pandemiya dövründə, həm də 44 günlük İkinci Qarabağ müharibəsi dövründə heç bir ərzaq qıtlığı hiss olunmadı. Bu gün də bazarlarda qiymətlər sabitdir,

*Ardı 2-ci səhifədə*





istehsal var və əhali də ildən-ilə əkin sahələrini genişləndirməklə bərabər, onlar müasir aqrotexniki qulluq qaydalarını da öyrənirlər ki, bunun da nəticəsində məhsuldarlıq artır. Ona görə də aqrolizinq fəaliyyətini bundan sonra da əhaliyə xidmət sahəsində davam etdirməli, əhalinin sifarişi əsasında lizinqə texnika və avadanlıqlar gətirilməli, əvvəlki illərdən qalan texnikaların qiymətlərinə isə Nazirlər Kabineti tərəfindən yenidən baxılmalıdır. Bu işlərin davam etdirilməsi gələcəkdə muxtar respublikada kənd təsərrüfatı sahəsində məhsuldarlığın və məhsul çeşidinin artırılmasına şərait yaradacaqdır. Əgər Sovetlər Birliyi dövründə və müstəqilliyin ilk illərində muxtar respublikaya kartof, soğan və digər kənd təsərrüfatı məhsulları, əsasən, başqa yerlərdən gətirilirdisə, artıq bu gün muxtar respublika özünü bu məhsullarla təmin edir. Hətta artıq bir neçə ildir ki, muxtar respublikadan kənd təsərrüfatı məhsullarının ixracına başlanılıbdır. Bunlar nailiyyətlərdir.

Ali Məclisin Sədri aqrar sahənin inkişafında əməyi olanlara təşəkkürünü bildirmiş və gələcək fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra yeni alınmış texnikalara baxış olmuşdur. Qeyd olunmuşdur ki, “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən fəaliyyəti dövründə 3471 texnika və texnoloji avadanlıqlar alınmış, onlardan 2900-ü sahibkarlara lizinqə verilmişdir. Ali Məclis Sədrinin tapşırığı ilə 2021-ci ildə 327, 2022-ci ilin ötən dövründə isə sahibkarların texniki təminatını düzgün təmin etmək üçün onların tələbatına uyğun və sifarişləri əsasında 4 qarğıdalı, günəbaxan və tərəvəz toxumu əkən, 4 arpa-buğda qırma maşını, 2 bağarası dərmansəpən, 18 kotan, 9 rotorlu və əl ilə otbiçən, 4 çizel, 6 arxaçan, 12 gübrəsəpən, 10 yaş və quru otdoğrayan maşın olmaqla, ümumilikdə, 69 kənd təsərrüfatı texnikası alınmışdır. Alınmış texnikalardan 2021-ci ildə 249-u lizinqə, 97-si nağd, 2022-ci ildə isə 32-si lizinqə, 2-si isə nağd olmaqla, ümumilikdə, 380 texnika və texnoloji avadanlıqlar sahibkarlara verilmişdir.

Bildirilmişdir ki, cəmiyyətin özündə və rayon bazalarında yerləşən bitkiçilik və heyvandarlıq apteklərində kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar, xüsusilə tərəvəzlərin zərərvericilərə qarşı qorunmasında əhəmiyyətli olan gübrələr satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir. Cəmiyyətin anbarında kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri də vardır. Gübrə anbarlarına baxış zamanı bildirilmişdir ki, bu il, ümumilikdə, 100 ton kompozit gübrəsi alınmışdır ki, sahibkarlara satışı həyata keçirilir. Cəmiyyətin rayon bazalarında gübrə ehtiyatı yaradılmışdır. Artıq 2021-2022-ci il üçün taxıl istehsalçılarına karbamid gübrəsinin paylanılması yekunlaşmışdır.

Ali Məclisin Sədri Kənd Təsərrüfatı Nazirliyi tərəfindən səyyar aptekin yaradılması, günəbaxan biçən texnikaların alınması, yeni texnika və avadanlıqların gətirilərək lizinq və nağd formada satışının təşkil olunması, bələdiyyə və dövlət mülkiyyətində olan dəmyə torpaqların “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən əkininin həyata keçirilməsi, günəbaxan və qarğıdalı əkinlərinin təşviqi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

*İstehsal müəssisələri*

## Süfrəmizin bəzəyi – öz çörəyimiz

***Bu gün muxtar respublikamızın inkişaf strategiyasını diqqətlə izləyən hər bir şəxs bu prosesdə sənaye sahəsinin öndə getdiyini, son bir neçə onillikdə bu istiqamətdə xeyli uğurlar qazanıldığını, belə nailiyyətlərin davamlı xarakter aldığını təsdiq edər; bununla bağlı yaranmış bir qənaətlə qeydsiz-şərtsiz razılaşar ki, diyarımız aqrar regiondan sənaye məhsulları istehsalı ilə məşğul olan məmləkətə çevrilib.***





Sənaye məhsullarının istehsalı paytaxt şəhərimizlə məhdudlaşmır; sovet dönəmini xatırlayanlar da təsdiq edər ki, o dövrdə sənaye müəssisələri ancaq mərkəzdə, nisbətən böyük şəhərlərdə və rayon mərkəzlərində cəmləşmişdi. Bu gün isə “Naxçıvan modeli”nin ən mütərəqqi cəhətlərindən biri də odur ki, sənaye məhsulları istehsal edən müəssisələr kənd yaşayış məntəqələrində də xeyli saydadır. Konkret faktlar da bunu deyir.

Muxtar respublikanın ən böyük rayonlarından biri olan Şərura ezam edilməyimdə də məqsəd bu bölgədə həmin sahənin inkişafı ilə bağlı yazı hazırlamaq idi.

Məlumat üçün deyim ki, rayonda 24 lavaş sexi, 14 mebel təmiri (onların bir neçəsi həm də istehsalla məşğuldur), 1 çörək zavodu, 1 dəyirman (həm də lavaş istehsalı), mövsüm ərzində fəaliyyət göstərən 14 priket istehsalı və digər sahələr insanların xidmətindədir. Onların sırasında rayonun Şəhriyar kəndində mətbəx mebeli hazırlayan Rza Rzalını, Aşağı Aralıqda “Elxan-Dəyirman” Məhdud Məsuliyyətli Cəmiyyətini, Qışlaqabbas kəndində idman formalarının tikişi ilə məşğul olan ailə təsərrüfatçısı Nabat Vəliyevanı, həmin yaşayış məntəqəsində mebel istehsalı və təmiri ilə məşğul olan Taleh Sultanovu və başqalarını göstərmək olar ki, bu gün rayonda hamı onların fəaliyyətindən razılıqla danışır. Bugünkü yazımızda isə “Elxan-Dəyirman” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətindən bəhs etmək istəyirik.

Cəmiyyətin rəhbəri Elxan Əliyevin sözlərinə görə, məhsul istehsalı ilə məşğul olan sahibkarlar yaxşı bilirlər ki, keyfiyyətli məhsula nail olmaq üçün bir sıra vəzifələrə əməl edilməlidir. İlk növbədə, müasir avadanlıq mütləqdir, çünki bunsuz mümkün deyil. Biz də arayıb-axtarıb qardaş Türkiyə Respublikasının Konya şəhərindən avadanlıqlar gətirib quraşdırdıq. Bəhrəsini indi də görürük. Hazırda burada iki istehsal sahəsində 6 nəfər çalışır. Xammal kimi buğda “Naxçıvan Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətindən alınır. Bir saat ərzində növündən asılı olaraq 300-400 kiloqram buğda üyüdülür, həmin məhsul həm satılır, həm də müəssisənin lavaş sexində istifadə edilir. Burada 1 saat ərzində 50 kiloqram çörək bişirilərək rayonun ticarət şəbəkələrinə göndərilir.

Müəssisənin həyətində buğda anbarı inşa edilib. Elxan Əliyev deyir ki, Türkiyənin “Vətən-Qida” müəssisəsindən alınmış laboratoriya avadanlığı üyüdəcəyimiz və özümüzün də istifadə edəcəyimiz məhsulun keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsinə imkan verir.

İstehsal sexlərində olarkən yanğın və texniki təhlükəsizlik, sanitar-gigiyenik tələblərə ciddi riayət edildiyi diqqətimizdən yayınmadı. İşçilərə tibbi kitabçalar açılıb, onların vaxtlı-vaxtında müayinədən keçirilməsi diqqətdə saxlanılıb. Müəssisənin həyətinə daimi su xətti çəkilib, buradakı mətbəx işçilərin elə müəssisədə nahar etmələrinə imkan verib.

Geyim forması ilə də təmin olunmuş işçilər yaradılmış şəraitdən razılıqlarını bildirdilər. Rayon mərkəzində isə cəmiyyətin istehsal etdiyi lavaşın satıldığı bir mağazada şəhər sakini Vüsal Abdullayevlə həmsöhbət olduq. Bildirdi ki, illərdir, “Elxan-Dəyirman” Məhdud Məsuliyyətli Cəmiyyətinin lavaşından istifadə edirlər. Həm dadlıdır, həm də keyfiyyətli.

*...Bir vaxtlar saatlarla çörək növbələrinə dayandığımız günlər illərdir ki, arxada qalıb. Yaxşı ki, o günləri bugünkü nəsil yaşamır. Gözlərini açıb çörək bolluğu görüblər. Dövlətimizin yaratdığı bu şərait hər birimizdə qürur hissi yaradır ki, bu gün süfrələrimizin bəzəyi öz çörəyimizdir. Qalır ki, onun qədrini bilək...*

**Muxtar MƏMMƏDOV**

---

## İlin ruzi-bərəkətinin bünövrəsi yaz fəslində qoyulur

Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib. Həmin müşavirədə qeyd olunub ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yerli icra hakimiyyətləri ilə birlikdə bu il də yeni yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması, eləcə də bərpa əkinləri üçün hazırlıqlar görməli, hava şəraitinə uyğun olaraq yaşıllaşdırma tədbirlərinə başlanılmalıdır. Yaşıllaşdırma tədbirlərində ting tələbatı yerli imkanlar hesabına ödənilməli, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxs bu sahədə tədbirlərə diqqəti artırmalı, tingçilik təsərrüfatlarında hazırlıqlara başlanılmalıdır. Yaz-tarla işlərinin düzgün təşkil olunması bol məhsul istehsalına təminat verir. Ona görə də Kənd Təsərrüfatı Nazirliyi muxtar respublikanın ayrı-ayrı kənd təsərrüfatı bitkiləri üzrə əkin tələbatını müəyyənləşdirməli, mütərəqqi əkin metodlarına üstünlük verilməli, torpaq mülkiyyətçiləri mövsümi aqrotexniki qaydalar barədə məlumatlandırılmalıdır.



Verilən tapşırıqların yerinə yetirilməsi cəbhə bölgəsi olan Sədərək rayonunda da diqqətdə saxlanılır. İlin ruzi-bərəkətinin bünövrəsinin qoyulduğu bahar fəsli, eyni zamanda maddi nemətlər bolluğu yaradan, torpağa bağlı, əkinçi, biçinçi, zəhmət adamlarının qayğılı günlərinin başlanmasıdır. İndi ilin elə vədəsidir ki, gün çıxandan ta gün batana kimi kənd adamı əkin yerində alın tərini torpağa qatır, ilin məhsulunun əsasını qoyur. Sədərəyin zəhmət adamları da gününün çoxunu əkin yerlərində, bağlarda keçirir. Kimi şitil əkir, kimi üzüm tağlarını torpaqdan çıxarıb bağlamaqla, kimisi isə yeni ting əkib, calaq vurmaqla məşğuldur.

Rayonda torpaqlardan səmərəli istifadə olunması və yüksəkkeyfiyyətli məhsul istehsalı üçün zəhmət adamlarına hər cür şərait yaradılıb. Su itkisinə yol verilməməsi üçün bu ilin yanvar-fevral aylarında suvarma sistemləri Sədərək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi tərəfindən ara arxları, kollektorlar, beton və torpaq kanallar lildən təmizlənib. Müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlarla təchizat da yüksək səviyyədədir. Rayonda 2022-ci ilin məhsulu üçün ötən ilin payızında 2388 hektar sahədə taxıl əkilib, bunun 796 hektarı buğda, 1592-si arpadır. Erkən yazdan yaz-tarla işləri davam etdirilməyə başlanılıb. 230 hektar sahədə yaz şumu aparılıb. 24 hektar ərazidə arpa, 29 hektarda yonca, 11 hektarda isə kartof əkilib. Bütün bunlarla yanaşı, rayonun yaşıllaşdırılması da diqqət mərkəzində saxlanılıb. Ağaclar budanıb, dibləri yumşaldılıb. Heydərabad qəsəbəsində və rayonun yaşayış məntəqələrində yol kənarlarına yüzlərlə meşə ağacı, həmişəyaşıl ting və çinar əkilib, suvarılıb, Heydərabad qəsəbəsində 0,3 hektar ərazi yeni üzüm bağı salınması üçün hazırlanıb. Burada torpaq hamarlama işləri görülüb, şırımlar açılıb, əraziyə 620 məhsuldar sortlu yeni üzüm tənəkləri salınıb. Bununla yanaşı, ötən şənbə iməciliyində bir hektar sahədə 1600 üzüm tingi əkilib. Yerli sortlardan istifadə edilib. 2,2 hektar sahədə isə yeni badam bağı salınıb. Bununla da sərhəd bölgəsində badam bağlarının ümumi sahəsi 9,5 hektara çatdırılıb.



Bütün bunlar onu deməyə əsas verir ki, aqrar sahənin inkişafı üçün müəyyənləşdirilən yol, kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində qarşıya qoyulan vəzifələr Sədərəkdə də diqqətdə saxlanılır.

**Ramiyyə ƏKBƏROVA**

Səhiyyə

# Yüksəkixtisaslı personal, müasir tibbi metodlar və münasib qiymət

## Sağlam dişlərə və xoş təbəssümə qovuşmağınız artıq ən yaxın ünvanda

***Həkimlər deyirlər ki, insan səhhəti, əsasən, diş sağlamlığından asılıdır. Onların qənaətinə görə, hətta təkcə bir dişin olmaması belə, həzm sisteminə mənfi təsir edir. Bu isə gələcəkdə ciddi xəstəliklərə gətirib çıxarır. Məhz buna görə dişlərə düzgün qulluq etmək, onları qorumaq, vaxtında müalicə etmək və tələbat yarandığı halda implantlaşdırmaq lazımdır.***



Muxtar diyarımızda da bütün sahələr kimi, stomatologiyanın inkişafı üçün görülən işlər, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, infrastrukturun yaradılması, eləcə də yüksəkixtisaslı kadrların yetişdirilməsi istiqamətində həyata keçirilən tədbirlər burada insan amilinə verilən dəyərin təcəssümüdür. Bu ilin yanvar ayında yenidən qurularaq istifadəyə verilən müasir sağlamlıq ocağı "İmplant Dent Nakhchivan" Stomatoloji Klinikası da tibbin ən son yeniliklərinə əsaslanan tibbi cihaz və avadanlıqları ilə muxtar respublika sakinlərinə nümunəvi xidmət edir. Buradakı fəaliyyətlə bağlı məlumat almaq üçün klinikanın baş həkimi, stomatoloq ***Rauf Cəfərov***la iş başında görüşüb, həmsöhbət olduq.

Əvvəlcə onu qeyd edək ki, səhiyyə ocaqlarında xidmətin səviyyəsi təmizlik və sanitariya vəziyyətinə xüsusi diqqət yetirilməsi ilə ölçülür. Klinikada təmizliyə riayət girəcəkdə yerləşdirilən baxıl aparatından bəlli olur. Ağappaq döşəmə, içərini çıraqban edən işıqlandırma, gözləmə salonunda gözoxşayan qeyri-adi dizayn, gülərüz personal içəri daxil olan andan bəri diqqəti çəkir. Burada yaradılan oxunması zəruri olan kitablardan ibarət guşə isə gözləmə salonunda olan pasiyentlərin vaxtının səmərəli keçməsinə imkan yaradır.

Həkim deyir ki, "İmplant Dent Nakhchivan" Stomatoloji Klinikası zərurətdən yaranıb. Çünki vaxtilə Azərbaycanda təkcə Bakı şəhərində diş implantı üçün klinika mövcud idi. Çox keçmədi ki, Naxçıvanda diş implantı kabinəsinin yaranması ilə bağlı tapşırıqlar verildi. 2005-ci ilin dekabr ayında insanların sağlamlığına xidmət edən stomatoloji klinika fəaliyyətə başladı. Artıq 17 ildir ki, insan sağlamlığı üçün keyfiyyətli zəmin yaradan klinika əvvəllər 100 kvadratmetr ərazidə fəaliyyət göstərirdisə, əldə edilən güzəştli kreditlər sayəsində bu sahə genişləndirilərək 2 dəfədən çox artırılıb. İki mərtəbədən ibarət olan klinikanın birinci mərtəbəsində qeydiyyat, sterilizasiya, müayinə, həkim kabinələri və rentgen otaqları yerləşir. Klinikada İtaliya, Cənubi Koreya və Almaniya kimi qabaqcıl ölkələrin istehsalı olan avadanlıqlar quraşdırılaraq tibbin ən son yenilikləri tətbiq edilir. Yeni rentgen avadanlığı vasitəsilə muxtar respublikada ilk dəfə 3D rentgen müayinəsi həyata keçirilir. Klinikanın ikinci mərtəbəsində isə həkim, sterilizasiya, tədris və əməliyyat otaqları yerləşir. Ən müasir imkanların mövcudluğu burada əməliyyatların uğurla aparılmasını şərtləndirməklə yanaşı, eyni anda bir neçə pasiyentin qəbulunu təmin edəcək. Buradakı avadanlıqların bir çoxu ölkəmizdə ilk dəfə tətbiq olunan müasir tibbi texnologiyadır.

Stomatologiyanın inkişafında Azərbaycan İmplantoloq İctimai Birliyinin xüsusi rolu olduğunu bildirən həkim birliyin təşkilatçılığı ilə Naxçıvanda mütəmadi olaraq seminar və elmi-praktik konfranslar keçirildiyini, bunun tələbələrin gələcək fəaliyyətlərində peşəkar həkim kimi formalaşmasında mühüm rol oynadığını qeyd etdi. Həkimin sözlərinə görə, stomatoloq həkimlər və bu sahə üzrə təhsil alan tələbələr mütəmadi olaraq müxtəlif respublika və beynəlxalq miqyaslı konfranslarda, simpoziumlarda, beynəlxalq layihələrdə iştirak edirlər. Rauf Cəfərov onu da vurğuladı ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən ictimai birliyin bu sahədəki fəaliyyəti yüksək qiymətləndirilib və muxtar respublikada həkim-stomatoloqların hazırlanması sahəsində fəaliyyətlərinə görə Azərbaycan İmplantoloq İctimai Birliyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilib.

Kifayət qədər iş təcrübəsinə malik olan Rauf həkim əvvəlki illərlə müqayisədə tibb elmində, xüsusən də stomatologiya sahəsində yeni texnologiyaların tətbiqinin əhəmiyyətindən danışaraq muxtar respublikamızdakı müasir tibb ocaqlarının infrastrukturu və burada tətbiq olunan yeni avadanlıqlar barədə də ətraflı məlumat verir. Deyir ki, indi tibdə, xüsusilə də stomatologiya sahəsində elə müasir avadanlıq və müalicə texnologiyaları tətbiq olunur ki, onları nəinki 10 il,



hətta iki-üç il əvvəlkilərlə müqayisə etmək çətindir. Müasir kompüter texnologiyası ilə ən həssas müayinələri tam dəqiqliklə həyata keçirmək mümkündür ki, bu da həkimlərin işini xeyli asanlaşdırır.

Həkim onu da qeyd etdi ki, müasir dövrümüzdə bir sıra səbəblərdən diş xəstəlikləri xeyli çoxalmışdır. Buna görə də indi dişlərin müayinəsi və müalicəsi üçün müraciət edən pasiyentlərin də sayı artıb. İnsanlar daha çox profilaktik məqsədlə diş həkimlərinə müraciət edirlər ki, bu da stomatoloqlar üçün əlavə məsuliyyət deməkdir. Bu gün artıq insanlar maariflənib, təbii dişin əvəzini heç nəyin vermədiyini yaxşı bilirlər.

Onu da diqqətinizə çatdıraq ki, Rauf həkim həm də bu sahədə fundamental elmi-tədqiqat işləri ilə də məşğuldur. 2013-cü ildən Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Əczaçılıq və stomatologiya kafedrasında baş müəllim işləyən Rauf Cəfərov 2015-ci ildə "Naxçıvan Muxtar Respublikasında əhali arasında əsas stomatoloji xəstəliklərin yayılması və stomatoloji xidmətin optimallaşdırılması" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək "tibb üzrə fəlsəfə doktoru" elmi dərəcəsi alıb. Türkiyə, Rusiya, Litva, Ukrayna, İsrail, Misir, İran və digər ölkələrdə beynəlxalq konfranslarda iştirak edib, ixtisaslaşma kurslarında olub. O, qazandığı bütün uğurlara görə dövlətimizə bir daha minnətdarlıq edərək muxtar respublikamızda səhiyyənin inkişafına göstərilən dövlət qayğısından qürurla danışdı.

Klinikada diqqətçəkən ən mühüm yeniliklərdən biri isə Naxçıvan Dövlət Universitetinin Stomatologiya kafedrasının tələbələri üçün tədris otağının yaradılmasıdır. Bu otaqda tələbələr nəzəri biliklərlə yanaşı, implant əməliyyatlarını birbaşa izləməklə də mühüm təcrübə əldə edirlər. "İmplant Dent Nakhchivan" Stomatoloji Klinikasında tədris otağının mövcudluğu bu sahədə təhsil alan tələbələrin yeni biliklər və təcrübə əldə etmələrinə geniş imkanlar açır.

Klinikada təcrübə keçən Naxçıvan Dövlət Universitetinin Tibb rezidenti ***Səmayə Əsgərli*** ilə də söhbətimiz buradakı tədris imkanlarının yüksəkixtisaslı kadr hazırlığının gələcək uğurlarına böyük əminlik yaratdı: Tibb sahəsini seçən tələbənin həkim kimi yetişməsi üçün əsas açar onun praktik biliyidir. Biz də bu klinikada universitetdə qazandığımız nəzəri biliyimizi praktik cəhətdən təkmilləşdiririk. Burada yaradılan tədris otağı ona imkan verir ki, bizə aydın olmayan məsələləri klinikada praktik təcrübələr zamanı həkim Rauf Cəfərovdan daha geniş şəkildə öyrənək. Tədris otağının müsbət tərəflərindən biri isə klinikada yaradılan əməliyyat otağında aparılan əməliyyatları birbaşa tədris otağında quraşdırılan elektron lövhədə izləməkdir.

Otaqları gəzərkən gənc stomatoloq Dilrubə Abdullayeva ilə də tanış olduq. Onun fikrincə, stomatoloq işi reqlamentli işdir. Yəni sənin daimi və dəqiq iş qrafikin var. Çünki bu sahəyə tələbat həddindən artıq çoxdur. Xüsusilə də iş prosesindən tutmuş klinikanın təchizatına, sanitar təmizliyinə qədər hər şey yüksək səviyyədə olduqda etibarlılıq yaranır və nəticədə müraciətlərin sayı da artır. Həkim deyir ki, səhiyyə xidməti zamanı pasiyentlərlə səmimi, gülərüz davranmaq iş prinsipimizdir. Xüsusən keyfiyyətli müalicə prosesində pasiyentin həkimdən və onun işindən razı qalması çox vacibdir. Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın tibb peşəsinə aid ədəbiyyatlarından da bu prosesləri dərindən öyrənmişik və təcrübəmizdə istifadə edirik. Məhz bu cür yanaşma bizə müraciət edən pasiyentlərin sevgisini qazanmağımızın əsas səbəbidir. Hər kəsi qane edən qiymətlərlə yüksək keyfiyyət təklif edirik. Qəzetiniz vasitəsilə diyarımızın sakinlərinə çatdırmaq istəyirəm ki, mərkəzin tibbi personalı sizi daim gülərüzlə qarşılamağa və sağlamlığınızın qayğısına qalmağa hazırdır. Tibbi personalın məqsədi sizə sağlam dişlər, daim təbəssüm və rahat həyat bəxş etməkdir.

Müayinə otaqları ilə tanışlıq zamanı pasiyentlərdən biri ilə də söhbət etmək imkanımız oldu. Diş sağlamlığını yalnız Rauf Cəfərova etibar edən ***Natiq Novruzov*** dedi: – Artıq neçə ildir ki, istər mənim, istərsə də tanışlarımın dişlərində



narahatlıq duyan kimi Rauf həkimə müraciət edirik. Əvvəl bu klinika bu qədər geniş, rahat deyildi, həm də belə müasir tibbi avadanlıqlarla təchiz olunmamışdı. İndi klinikada o qədər gözəl şərait yaradılıb ki, buraya gələn getmək istəmir. Təchizat çox yüksək səviyyədədir. Əvvəlcə ağız boşluğum rentgen müayinəsindən keçirildi, indi isə dişlərimdə müalicə işləri aparılır. Diyarımızda insan amilinə verilən dəyərə, bizim üçün yaradılan şəraitə görə minnətdaram.

Dişlər təkcə yaxşı qidalanma deyil, həm də gözəl təbəssüm deməkdir. Ona görə də son vaxtlar ən dəbdə olan və ən çox tələbat görülən estetik olaraq dişlərin kimyəvi ağardılması da mərkəzdə ən səmərəli, ən təhlükəsiz və ən asan üsulla həyata keçirilir.

*Nəticə etibarı ilə, vurğulayaq ki, muxtar respublikada həyata keçirilən səhiyyə islahatları stomatologiyanın da inkişafını təmin edib. Peşəkar stomatoloqların və müasir stomatoloji klinikaların sayının artması da bu inkişafın göstəricisidir. "İmplant Dent Nakhchivan" Stomatoloji Klinikası isə bu inkişafın ən yüksək nailiyyətlərindən biri kimi yüksəkixtisaslı personal, ən müasir avadanlıq və tibbi metodlar, ən əsası isə münasib qiymətlərlə diş xəstəliklərindən əziyyət çəkən və gözəl dişlərə sahib olmaq istəyənlərin yolunu gözləyir.*

**✍ Gülcamal TAHİROVA**

## Şagirdlər arasında tuberkulin test sınaqları aparılır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq şəhər və rayonlarda fəaliyyət göstərən məktəblərdə ilkin vərəm intoksikasiyasının erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb edilməsi üçün aprel ayının 1-dən I-VI sinif şagirdləri arasında kütləvi tuberkulin test sınaqları aparılır. Hazırda bu tədbirlər muxtar respublikamızın rayonlarında uğurla həyata keçirilir.

Şərur Rayon Uşaq Xəstəxanasında ərazi prinsipi üzrə bir həkim, iki tibb işçisindən ibarət xüsusi briqada yaradılıb, tuberkulin testinə cəlb ediləcək şagirdlərin siyahıları tərtib olunub. Zeyvə, Cəlilkənd, Axura, Dizə, Tumaslı, Vərməziyar və Kərimbəyli kənd tam orta məktəblərində 1400 doza tuberkulin test sınağı aparılması nəzərdə tutulub. Tədbirə Şərur rayonunun Zeyvə və Cəlilkənd tam orta məktəblərindən start verilib. Şagirdlərin ümumi sağlamlıq vəziyyəti yoxlanıldıqdan sonra Zeyvə kənd məktəbində 151, Cəlilkənddə isə 95 şagird profilaktik xarakter daşıyan tuberkulin sınağından keçirilib.

Babək Rayon Mərkəzi Xəstəxanasında ərazi prinsipi üzrə yaradılmış bir həkim, iki tibb işçisindən ibarət xüsusi briqadalar tərəfindən Kültəpə, Didivar, Kərimbəyli, Qaraqala, Güznüt, Çeşməbasar, Qoşadizə kənd və Babək şəhər tam orta məktəblərində 1212 şagird tuberkulin sınağından keçirilib. Profilaktik xarakter daşıyan sınaqlar zamanı heç bir narahatlıq müşahidə olunmayıb.



May ayınadək davam edəcək tuberkulin sınağı zamanı şübhəli və müsbət reaksiyalı şagirdlərin dərin ftiziatr müayinəsinə cəlb olunması işi də təşkil ediləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və bölmənin əməkdaşları "Naxçıvan" Universitetində təhsil alan tələbələrlə görüşüblər.*

## Alimlərin tələbələrlə görüşü olub

Görüşdə "Naxçıvan" Universitetinin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, bu görüş tələbələrimizin elmi fəaliyyətə istiqamətlənmələri üçün əlamətdar və stimullaşdırıcı əhəmiyyət kəsb edir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Naxçıvanda elm və təhsil sahəsinə göstərilən qayğıdan bəhs edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyəti nəzərə alınaraq elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, diyarın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamına əsasən AMEA Naxçıvan Bölməsinin yaradılması muxtar respublikada elmin daha da inkişaf etməsinə əlverişli şərait yaradıb.

Akademik təhsil və elmi müəssisələr arasında əlaqələrin gücləndirilməsinin zəruriliyini qeyd edib, hamiliyə verilən ixtisasların tələbələrinin elmə maraqlarının artırılmasında alim və ziyalıların üzərinə düşən vəzifələrdən danışıb.

AMEA-nın müxbir üzvləri Hacıfəxrəddin Səfərli və Vəli Baxşəliyev universitetlərlə bu cür əməkdaşlığın qurulmasının kadr hazırlığı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Görüşdə tələbələri maraqlandıran suallara aydınlıq gətirilib, akademiya əməkdaşları tərəfindən universitetə kitablar hədiyyə edilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Birinci rüb ərzində 69 dinləyici şəhadətnamə ilə təmin edilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin Tədris bölməsində birinci rüb ərzində təşkil edilən kurslarda 121 qrup olmaqla, 278 dinləyici iştirak edib.*

Dinləyicilərə kompüterin daxili və xarici qurğuları, modemlər, onların iş prinsipləri, kompüterin proqram təminatı, əməliyyat sistemləri, antivirus proqramları barədə hazırlanmış slaydlar vasitəsilə ətraflı məlumatlar verilir. Dərslər fərdi və qrup şəklində keçilir.

Mərkəzdə ingilis dili kursları da tədris olunur. IELTS, Beginner, Elementary, Intermediate, Upper-Intermediate və Advanced səviyyələri və "English kids" yönümlü kurslar təcrübəli müəllimlər tərəfindən tədris edilir.

Cari ilin birinci rübü ərzində, ümumilikdə, 78 nəfər imtahanlarda uğurlu nəticə əldə edib, onlardan 69 nəfəri şəhadətnamə, 9-u isə sertifikatla təmin olunub.

Bölmənin Şərur və Culfa rayon filiallarında isə 48 qrup olmaqla dinləyicilərin sayı 116 nəfər təşkil edib.

Kurslarda iştirak etmək istəyən şəxslər onları maraqlandıran məlumatları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinə və ya *"116"* nömrəli sorğu-məlumat xidmətinə müraciət etməklə və yaxud *nakhinternet.az* internet səhifəsi vasitəsilə əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***



# Muxtar respublikada xalq sənəti növlərinin qorunması və təbliği istiqamətində əvəzsiz işlər görülür

*Muxtar respublikada xalq yaradıcılığının inkişaf etdirilməsinin daim diqqət mərkəzində olması, dövlətin bu sahəyə göstərdiyi qayğı yerli sənətkarlara yeni yaradıcılıq imkanları verib. Ötən dövrdə bu istiqamətdə bir çox işlər görülüb, o cümlədən muxtar respublikada xalq yaradıcılığı və sənəti ilə məşğul olan şəxslərin iş şəraitinin öyrənilməsi, onlara lazımi köməkliklərin göstərilməsi, muxtar respublikanın bölgələrində xalq sənətinin müxtəlif sahələri ilə məşğul olan sənətkarların əl işlərindən ibarət satış-sərgilərin təşkil olunması məqsədilə müvafiq qurumlarla qarşılıqlı fəaliyyət təmin edilib.*

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə reklam və kommersiya fəaliyyətləri ilə əlaqədar köməklik göstərilməsi məqsədilə 2004-cü ildə İqtisadiyyat Nazirliyinin nəzdində "Əl işlərinin, sənət əsərlərinin Sərgi-Satışı və Sahibkarların İnformasiya Mərkəzi" yaradılıb. 2011-ci ildən Naxçıvan Biznes Mərkəzi kimi fəaliyyətini davam etdirən müəssisədə xalq yaradıcılığının inkişaf etdirilməsi, el sənətkarlarının fəaliyyətinə daha da stimullaşdırılması və əl işlərinin sərgi-satış üçün qəbul edilməsi istiqamətində davamlı iş aparılıb. Ötən il mərkəz tərəfindən sərgi-satış məqsədilə ümumi dəyəri 18 min 879 manat olan 923 adda iş satışa çıxarılıb. Bu müddətdə 469 adda 8575 manat dəyərində əl işlərinin satışı həyata keçirilib. Həmçinin "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda muxtar respublikada fəaliyyət





göstərən sənətkarlar tərəfindən hazırlanan 217 əl işi, rəsm əsərləri, xalçalar nümayiş olunur. Muxtar respublikada belə bir mərkəzin yaradılmasında məqsəd Naxçıvanda yaşayıb-yaradan çox sayda istedadlı sənətkarı bir araya gətirərək onların əl işlərinin satışı və sərgilənməsi üçün vahid məkanın qurulmasıdır.

Mərkəzin sərgi salonu ilə yanaşı, bu gün muxtar respublikada istehsal olunan məhsulların, eləcə də el sənətkarlarının hazırladıqları əl işləri və sənət əsərlərinin daha geniş məkanda təbliğ edilməsi və onların satışının təşkili məqsədilə Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yerləşən əl işlərinin satışı mağazası fəaliyyət göstərir. Bu gün həmin mağazada naxçıvanlı sənətkarlar tərəfindən hazırlanmış müxtəlif misgərlik, dulusçuluq, ağacoyma, rəsm əsərləri, toxunma geyimlər, kiçikölçülü xalçaçılıq məmulatları və sair satılır. Naxçıvan şəhərinin müxtəlif yerlərində fəaliyyət göstərən bu mağazalardan hər bir kəs öz qonağı, yaxınları, əzizləri üçün hədiyyəlik kimi olduqca maraqlı sənət nümunələri tapa bilər.

Bu əl işlərinin turistlərin ən çox maraq göstərdiyi obyektlərdə, o cümlədən Saat Meydanında yerləşən hədiyyəlik – "Naxçıvan məhsulları" satış mağazasında, Əshabi-kəhf ziyarətgahında və Duzdağ Fizioterapiya Mərkəzində satış məntəqələrinin yaradılması Naxçıvanımızın tanıdılmasında əvəzsiz rola malikdir.





Bu gün Naxçıvan turistlərin ən çox ziyarət etdiyi məkanlardan birinə çevrilib. Hər bir turist istirahət etdiyi və ya səyahətdə olduğu məkandan gedərkən ailəsinə və yaxınlarına bu yurdun tarixinə, məişətinə, mədəniyyət və adət-ənənələrinə aid əl işlərindən ibarət bir yadigar aparmağa daha çox üstünlük verir. Bu da mühüm bir təbliğat nümunəsidir. Çünki ağac üzərində oyma işlərindən daşduz suvenirlərinə, misgərlik məmulatlarından kəlağayı və araqçına, türk-islam mədəniyyəti abidələrindən təbiət gözəlliklərinin təsvirindək hakk olunmuş müxtəlif əl işlərində ölkəmizin tarixindən, mədəniyyətindən, məişətindən tutmuş milli dəyərlərinə, dünyaya baxış tərzinə, zövqünədək çox cizgilər yatır. Bununla bağlı xalq yaradıcılığının müxtəlif sahələri ilə məşğul olan sənətkarlarımız belə fürsəti yetərincə dəyərləndirməlidirlər.

Müxtəlif sənətkarlıq sahələrinin inkişaf etdirilməsi daxili bazarı təmin etməklə yanaşı, yaxın gələcəkdə xarici bazarlarda da özünə alıcı kütləsi qazana bilər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Təlim başa çatıb

"Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na uyğun olaraq keçirilən komanda-qərargah təlimi başa çatıb.



Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində keçirilən komanda-qərargah təliminin sonuncu mərhələsində döyüş əməliyyatları planlarının hazırlanması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə bölmələrin qarşılıqlı fəaliyyəti koordinasiya edilib, qərargahların vahid idarəetmə orqanı kimi uzlaşması yoxlanılıb, birləşmə və hissələrin fəaliyyətləri, qərarların və hesablamaların reallığı kompüterlər vasitəsilə qiymətləndirilib.

Təlimin yekunu keçirilən zaman şərti düşmənin terror qruplaşmalarının zərərsizləşdirilməsində uzlaşmış fəaliyyətlərə nail olunduğu bildirilib, silah və döyüş texnikasının, eləcə də müasir silah sistemlərinin və texniki vasitələrin tətbiqində uğur qazanıldığı qeyd edilib.

**Nəriman NƏCƏFOV**

## Yeni dərslik geniş oxucu auditoriyasına hədiyyə olunub



*Naxçıvan Müəllimlər İnstitutunda pedaqogika üzrə elmlər doktoru, professor Hüseyn Əhmədovun bakalavr, magistr, doktorant, dissertantlar və gənc tədqiqatçılar üçün nəzərdə tutulan "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" adlı dərsliyi onun oğlu professor Hümeyr Əhmədov tərəfindən geniş oxucu auditoriyasına hədiyyə olunub.*

Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov bildirib ki, bu əsər tədris proqramının tələbləri səviyyəsində hazırlanıb. Dərslikdə çoxəsrlik Azərbaycan məktəb təhsilinin, pedaqoji ideyaların meydana gəlməsi və inkişaf mərhələləri elmi əsaslarla araşdırılıb.

İnstitutun Pedaqogika və psixologiya kafedrasının müdiri, professor İsmayıl Əliyev və kafedranın müəllimi, dosent Vahid Rzayev dərslik haqqında fikirlərini bildiriblər.

Müəllifin oğlu – Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri, professor Hümeyr Əhmədov tədbir üçün minnətdarlığını bildirib, müəllifin 120 dərsliyini hədiyyə edib. Həmin dərsliklərin 60-ı institutun kitabxanasına, 30-u institut əməkdaşlarına, qalanları isə Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinə, AMEA Naxçıvan Bölməsinə və Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasına verilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Tələbələrin təcrübə keçmələri təmin edilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" 2021-ci il 25 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisaslarında təhsil alan tələbələrin Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinə tabe müəssisələrdə istehsalat təcrübəsi keçmələri təmin olunur. Belə ki, Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, Tarix, Turizm və otelçilik, Kitabxanaçılıq və informasiya ixtisasları üzrə təhsil alan tələbələr muzeylərin ekspozisiya zallarında nümayiş etdirilən eksponatlar, fonda daxil olan eksponatların qeydə alınması qaydaları, muzeylər, memarlıq abidələri ilə tanışlıq, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında kitabxananın strukturu, çap məhsullarının qeydiyyata alınması, elmi və texniki qaydada işlənməsi, müxtəlif oxucu kateqoriyaları ilə işləmək, elmi-metodik köməklik, biblioqrafik xidmət haqqında məlumatlar əldə etmişlər.

İstehsalat təcrübəsi aprel ayının sonuna kimi davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən hallar hansılardır?*

***Cavab:*** "Media haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən media subyekti və jurnalist tərəfindən şəxsin gizli saxlanmaq şərtilə verdiyi informasiyanın proqram və materiallarda yayılmasına, məlumat vermiş şəxsin razılığı olmadan onun şəxsiyyətinin açıqlanmasına, təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai araşdırma məlumatlarının yayılmasına, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada tərtib edilən və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sənədləşdirilmiş informasiya hesab edilən cinayət təqibi üzrə icraat materiallarının surətlərinin olduğu kimi yayılmasına, yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə hər hansı məlumatların həmin şəxslərin və onların qanuni nümayəndələrinin razılığı olmadan yayılmasına, "Dini ekstremizmə qarşı mübarizə haqqında" Qanunun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-ci maddəsində nəzərdə tutulmuş sui-istifadə hallarına yol verilmir.

Məsul redaktor və (və ya) jurnalist istintaqı aparılan, yaxud məhkəmə icraatında olan işlə əlaqədar "Media haqqında" Qanunun 15.3-cü maddəsi ilə müəyyən edilmiş hallardan başqa informasiya mənbəyini açıqlamağa məcbur edilə bilməz. Məsul redaktor və ya jurnalist insan həyatının müdafiəsi, ağır və xüsusilə ağır cinayətlərin qarşısını alması və ağır, xüsusilə ağır cinayət törətməkdə təqsirləndirilən şəxsin müdafiəsi üçün məhkəmənin qərarı ilə öz informasiya mənbəyini açıqlamalıdır.

Təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin icazəsi olmadan ibtidai araşdırma məlumatlarının yayılması tələbləri jurnalistin müstəqil araşdırma aparmaq hüququnu məhdudlaşdırmır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

## Elan

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 mart 2022-ci il tarixli, 140 s nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2022-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planı"na əsasən 2022-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir.

***Doktoranturaya ödənişli əsaslarla***

*1. Ümumi iqtisadiyyat – 1 yer (qiyabi)*

*2. Etnopedaqogika – 1 yer (qiyabi)*

***Dissertanturaya ödənişli əsaslarla***

*1. Ehtimal nəzəriyyəsi – 1 yer*

*2. Diferensial tənliklər – 1 yer*

*3. Ümumi iqtisadiyyat – 1 yer*

*4. German dilləri – 1 yer*

*5. Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi – 1 yer*

***"Naxçıvan" Universitetinə doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:***

*- "Naxçıvan" Universiteti rektorunun adına ərizə;*

*- kadrların şəxsi-qeydiyyat vərəqi;*

*- tərcümeyi-hal*

*- 4 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*

*- iş yerindən xasiyyətnamə;*

*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*

*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi. Telefon: (036)545-07-45***

### İtmişdir

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 105 mənzil 36 ünvanında yaşayan Babayeva Gülbuta Fərəməz qızının adına verilən 26.05.2006-cı il tarixli 404 qeydiyyat nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Çərçiboğan kənd sakini Zamanov Tofiq Cəlil oğlunun adına olan JN-398 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Həsənov Qorxmaz Hüseyn oğlunun adına olan JN-496$^A$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 284